

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 147 (23.789)

14 avqust 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Dövlət proqramı icra olunur

## Rəqəmsal ödəniş infrastrukturu daha da təkmilləşdirilir

*Naxçıvan Muxtar Respublikasında müasir dövrün çağırışlarına uyğun iqtisadi sistemin formalaşdırılması əsas inkişaf istiqamətlərindən birini təşkil edir. Rəqəmsal ödəniş xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər əhalinin, sahibkarların və dövlət qurumlarının gündəlik fəaliyyətinin asanlaşdırılmasına şərait yaradır. Yeni innovativ ödəmə sistemlərinin tətbiqi maliyyə sabitliyinin təmin olunması sahəsində görülən işlərin səmərəsini artırır.*

Muxtar respublikamızda nağdsız hesablaşmaların genişləndirilməsində icrası uğurla həyata keçirilən plan və proqramların xüsusi əhəmiyyəti vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq edilən "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası istiqamətində görülən işlər də bunu bir daha təsdiq edir.

Hazırda icrası davam edən proqramın məqsədi isə əhali, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş imkanlarının daha da genişləndirilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsindən ibarətdir. Naxçıvanda bu istiqamətdə tədbirlər ikinci rübdə davam etdirilmiş, banklar tərəfindən ticarət, iaşə və digər xidmət obyektlərində 91 təmassız ödəniş etməyə imkan verən POS-terminal quraşdırılmışdır. Həmçinin bu dövrdə əhalinin daha çox üz tutduğu ərazilərdə 2 çoxfunksiyalı ödəniş terminalının quraşdırılması təmin olunmuşdur. Nəticə etibarilə, ikinci rübün sonuna muxtar respublikada POS-terminalların sayı 802-si təmassız ödəniş imkanlı olmaqla, 1467-yə, bankomatların sayı 115-ə, ödəniş terminallarının sayı isə 97-yə çatdırılmışdır. Hava nəqliyyatında ödəniş texnologiyalarından istifadə davam etdirilmiş, ikinci rübdə muxtar respublikada fəaliyyət göstərən aviakassalarda mövcud olan 10 POS-terminal vasitəsilə 210 min 508 manat həcmində nağdsız bilet satışı həyata keçirilmişdir. Görülən işlər təhlükəsiz və effektiv ödəniş imkanlarının artırılmasına səbəb olmuşdur.

Proqramda nəzərdə tutulan tədbirlərin faydalılığını xarakterizə edən cəhətlərdən biri bank sektorunda ödəniş prosesinin asanlaşdırılmasıdır. Ödəniş terminallarından istifadənin rahatlığı və təhlükəsizliyi, eləcə də vaxt itkisinin minimuma endirilməsi kredit müştərilərinin bu terminallardan istifadəsini stimullaşdıran amillərdir. İkinci rübdə muxtar respublikada 22 milyon 670 min 319 manat həcmində kredit ödənişi banka getmədən ödəniş terminalları vasitəsilə gerçəkləşdirilmişdir. Bu dövrdə məsafəli bank xidmətlərindən istifadə davam etdirilmiş, 2 min 134 onlayn kart sifarişi həyata keçirilmişdir.



Proqramın icrası biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin genişlənməsinə şərait yaradır. Özəl sektorda işçilərə əməkhaqqı verilərkən ödəniş kartlarından istifadə olunması rəqəmsal ödəniş xidmətlərindən istifadənin geniş vüsət almasına təkan verən digər mühüm tədbirdir. İkinci rübdə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində 25 aprel – Sahibkarlıq Günü münasibətilə keçirilən tədbirdə 22 sahibkarlıq subyekti iştirak etmişdir. Tədbir zamanı maliyyə sövdələşmələrinin nağdsız hesablaşmalar vasitəsilə aparılması, o cümlədən vergilərin, sosial ayırmaların, sığorta məbləğlərinin, kommunal xərclərin və dövlət büdcəsinə digər ödənişlərin nağdsız şəkildə ödənilməsinin vacibliyi ilə bağlı sahibkarlar məlumatlandırılmışdır. Muxtar respublikada aprel-iyun aylarında 190 vergiödəyicisi tərəfindən POS-terminal hesabına alınmış kartlar vasitəsilə 104 min 111 manat, 464 vergiödəyicisi tərəfindən isə şəxsi kartları vasitəsilə 181 min 896 manat vergi və sosial ayırmaların nağdsız qaydada ödənilməsi təmin edilmişdir. Bu dövrdə özəl sektorda 5 vergiödəyicisi üzrə 31 işçinin əməkhaqqı ödəniş kartları vasitəsilə ödənilmişdir.

Rəqəmsal ödəniş xidmətləri sahəsində həyata keçirilən mütərəqqi tədbirlərdən biri də əhalinin maliyyə savadlılığının artırılması və nağdsız ödənişlərdən istifadəyə həvəsləndirilməsidir. Bu məqsədlə maarifləndirmə tədbirlərinin təşkili xüsusi diqqətdə saxlanılır və proqramın icrasına uyğun olaraq muxtar respublikanın rayonlarında, eləcə də təhsil müəssisələrində işlər davam etdirilir. İkinci rübdə Şərur rayonu üzrə 9, Babək rayonu üzrə 2, Şahbuz rayonu üzrə 1 ümumtəhsil məktəbində, ümumilikdə, 191 müəllimə və 222 şagirdə rəqəmsal ödəniş xidmətləri haqqında zəruri biliklərin verilməsi təmin olunmuşdur. Mayın 26-da Naxçıvan Dövlət Texniki Kollecinin müəllim və tələbələri ilə maarifləndirici görüş keçirilmiş, nağdsız ödənişlərin üstünlükləri, bu istiqamətdə müasir elektron vasitələrin tətbiqi, elektron bankçılıq və onun formalarından bəhs edilmişdir. Tədbirin sonunda tələbələr arasında nağdsız ödənişlərə marağın artırılması məqsədilə həvəsləndirici lotoreyaya start verilmişdir. 6 ay ərzində ən çox nağdsız ödəniş edən 9 tələbə həvəsləndirici lotoreyanın qalibi olacaqdır.

Qeyd olunanlarla yanaşı, ikinci rübdə Şərur rayonunun Mahmudkənd, Babək rayonunun Qahab, Ordubad rayonunun Nüsnüs, Culfa rayonunun Ərəzin, Kəngərli rayonunun Qarabağlar, Şahbuz rayonunun Sələsüz və Sədərək rayonunun Dəmirçi kəndlərində proqramın icrasına uyğun olaraq maarifləndirmə işi aparılmış, görülən işlər rəqəmsal ödəniş xidmətlərinin kütləviləşməsinə nail olmaq məqsədi daşımışdır.

"2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ında nəzərdə tutulan tədbirlərin icrasının bundan sonra da uğurla davam etdirilməsi iqtisadi artıma mühüm təkan verəcəkdir.

**"Şərq qapısı"**

## Taxıl biçininin uğurla başa çatması həm də bu sahəyə marağı artırır



*Naxçıvanda kənd təsərrüfatının əsas qollarından biri olan taxılçılıq sahəsində son illər mühüm nailiyyətlər əldə olunub. Dövlət tərəfindən torpaq mülkiyyətçilərinə taxıl əkininə görə subsidiyaların və gübrələrin verilməsi, texnika və texnoloji avadanlıqların lizinq yolu ilə sahibkarlara satılması, mütərəqqi suvarma metodlarından istifadə, uzun illər əkilməyən torpaq sahələrinin yenidən əkin dövriyyəsinə daxil edilməsi təsərrüfatçıların əkinçiliyə marağını daha da artırıb.*

Qeyd edək ki, təkcə Babək rayonunda bu il 2020-ci ilin payızlıq taxıl əkininə görə 1946 nəfər istehlakçıya 585 min 538 manat məbləğində subsidiya, 2 milyon 428 min 178 kiloqram azot, 112 min 227 kiloqram isə fosfor gübrəsi verilib. Cari ilin birinci yarısında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə güzəştli şərtlərlə dövlət tərəfindən sahibkarlara 37 texnika və texnoloji avadanlıq lizinq yolu ilə satılıb. Məlumat üçün bildirək ki, taxıl biçinində 34 kombayndan istifadə edilib. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yerli qurumu tərəfindən rayon ərazisində biçilmiş taxıl sahələrində yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi və biçin zamanı yanğınların baş verməsinin qarşısının alınması məqsədilə zəruri tədbirlər həyata keçirilib. Dövlət dəstəyi alan sahibkarlar hər il əkin sahələrini genişləndirirlər. Artıq on minlərlə torpaq sahəsində əkin işləri aparılır və tonlarla məhsul tədarük edilir. Belə ki, 2021-ci ilin məhsulu üçün rayonda 16 min 172 hektar sahədə əkin aparılıb. Taxılçılıq üstün istiqamət kimi saxlanılaraq cari ilin məhsulu üçün 10 min 823 hektar sahədə taxıl əkilmişdi ki, bunun da 10 min 603 hektarı payızlıq, 220 hektarı isə yazlıq taxıl idi. Taxıl zəmilərinin 6973 hektarında buğda, 3850 hektarında isə arpa əkilmişdi. Əkilən sahələrdən 11 min 594 ton arpa, 21 min 846 ton buğda toplanmışdır.

Qeyd edək ki, bu ildən etibarən Ali Məclis Sədrinin tapşırığına əsasən buğdanın hər kiloqramı 45, arpa və qarğıdalının isə hər kiloqramı 40 qəpikdən qəbul edilərək dəyəri yerində ödənilir. Uzun illər blokada şəraitində yaşayıb, çörəklə sınağa çəkilən muxtar respublika bu gün daxili istehsal hesabına ərzaq ehtiyacını təmin edir, bununla yanaşı, ixrac potensialını artırır. Ərzaq ehtiyacının əsasını təşkil edən un və un məhsullarının təminatı üçün taxıl əkini ildən-ilə genişləndirilir.

**Nərminə SEYİDZADƏ**

*Muxtar respublikamızda həyata keçirilən tikinti-quruculuq və yenidənqurma tədbirləri əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasında müstəsna rol oynamaqdadır. Bu işlər cari ildə də müxtəlif istiqamətləri əhatə edir.*

## Quruculuq işləri davam etdirilir





Həyata keçirilən quruculuq tədbirlərindən biri paytaxt şəhərimizin Həsən Əliyev küçəsində Adil Babayev adına Uşaq Kitabxanası üçün inşa olunan binadır.

Cari ildə tikintisinə başlanan, zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olacaq kitabxana binasının zirzəmi hissəsində qarderob, iclas zalı, bufet, elektrik otağı, qazanxana, anbar və rəssam otağı, birinci mərtəbəsində zal və işçi otaqları, ikinci mərtəbəsində 1-4 və 5-11-ci siniflər üçün abonement fondu, kitabxanaçı otağı, üçüncü mərtəbəsində isə fond və işçi otaqları nəzərdə tutulub.

Qeyd edək ki, binada dəmir-beton işləri artıq yekunlaşdırılıb, zirzəmi hissəsində hörgü, suvaq işləri sona çatdırılıb. Hazırda döşəmələrin təbii daşla üzlənməsi, birinci və ikinci mərtəbədə suvaq, üçüncü mərtəbədə isə hörgü işlərinin aparılması davam etdirilir.

Naxçıvan şəhərinin Babək məhəlləsində isə bu ilin aprel ayından Naxçıvan Şəhər Qeydiyyat Şöbəsi üçün binanın tikintisinə başlanılıb. Zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət olacaq binanın zirzəmi hissəsində elektrik otağı, anbar, arxiv, qazanxana, qarderob, təsərrüfat otağı, birinci mərtəbədə gözləmə zalı və işçi otaqları, həmçinin notarius otağı, ikinci mərtəbədə isə mətbəx və tədbir zalı yerləşəcək.

Məlumat üçün bildirək ki, binanın bütün mərtəbələrində dəmir-beton və hörgü işləri artıq yekunlaşdırılıb, həmçinin binanın daxili hissəsində suvaq işləri sona çatdırılıb. Hazırda birinci, ikinci mərtəbələrdə döşəmənin və binanın fasadının təbii daşlarla üzlənməsi işləri aparılır.

Hər iki obyektdə yerli inşaat materiallarından istifadəyə üstünlük verilir. Keyfiyyət amili diqqətdə saxlanılır, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur.

**Məcid RƏŞADƏTOĞLU**

## Kəndlərdə rabitə xətləri yenilənir

*Muxtar respublikanın digər rayonları kimi, Ordubad rayonunda da hər bir sahədə inkişaf tempi artır. Aparılan abadlıq və quruculuq işləri çərçivəsində əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlər davam etdirilir.*



Hazırda rayonun Aşağı Əndəmic kəndində rabitə xətlərinin yenilənməsi və yeni nəsil avtomat telefon stansiyasının qurulması istiqamətində həyata keçirilən tədbirlər bu sahənin inkişafına göstərilən diqqət və qayğının əyani ifadəsidir. Yeni sistem abunəçilərə telefon, genişzolaqlı internet xidmətləri ilə yanaşı, müasir rabitə xidmətlərinin göstərilməsinə də imkan verəcəkdir.

Rabitə sahəsində gedən sürətli inkişaf əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlərin davam etdirilməsinə əsas zəmin yaradır. Rayonun kəndlərində yeni inşa olunan yaşayış binalarına və qurumlara rabitə xətləri çəkilir, sakinlərin internet xidmətləri ilə təmin olunması məqsədilə müvafiq işlər həyata keçirilir. Yeni inşa olunacaq kənd mərkəzində rabitə evinin də fəaliyyət göstərməsi nəzərdə tutulur. Aparılan quruculuq işləri çərçivəsində xətt təsərrüfatında əsaslı təmir işləri aparılır, kabel-kanalizasiya qurğuları inşa edilir, hava rabitə xətləri yeraltı xətlərlə əvəz olunur. Bir sıra yerlərdə uzun müddət istismar olunan və müxtəlif səbəbdən yararsız vəziyyətə düşən taxta rabitə dirəkləri dəmir dirəklərlə əvəz olunur, müxtəlif tutumlu yararsız kabellər yeni kabellərlə dəyişdirilir, yeni abonent qutuları və paylayıcı şkaflar əlavə edilməklə rabitə xətlərində digər nasazlıqlar aşkar edilərək bərpa olunur.

Abadlıq-quruculuq işləri çərçivəsində rayonun Vələver, Dırnıs, Kələki, Unus və Pəzməri kəndlərində də yenilənmə işləri görülür, rabitə infrastrukturunun yenidən qurulması istiqamətində müvafiq işlər həyata keçirilir.

Əhaliyə göstərilən rabitə xidmətlərinin keyfiyyətinə nəzarət edilməsi üçün mütəmadi olaraq xətt təsərrüfatının vəziyyəti yoxlanılır, müraciətlərinə uyğun olaraq sakinlərə texniki dəstək və metodik köməklik göstərilir.

Fiber-optik xətlərin çəkilməsi, yüksəksürətli internet şəbəkəsinin yaradılması, yeni nəsil telekommunikasiya sisteminin qurulması sakinlərin müasir rabitə xidmətlərindən yararlanmasına şərait yaradır.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

İnkişaf edən bölgələrimiz

# Milli-tarixi ənənələri, iqtisadi əhəmiyyətliliyi ilə seçilən abad yurd yerimiz



***Kəngərli Naxçıvanın çoxəsrlik qədim tarixini və zəngin mədəniyyət ənənələrini özündə yaşadan rayonlarımızdandır. Bu qədim bölgə Naxçıvanın tarixində, dövlət idarəçiliyində mühüm yer tutmuş Kəngərli tayfalarının əsas yaşayış məskəni kimi tanınır və 17 il bundan əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yaradılan yeni rayona "Kəngərli" adının verilməsi tariximizə, onun yetirdiyi şəxsiyyətlərə böyük qiymətin göstəricisidir. Digər tərəfdən iki inzibati rayon və iki xarici ölkə ilə həmsərhəd olan Kəngərli rayonu muxtar respublikanın mühüm aqrar və sənaye müəssisələrinin cəmləşdiyi bir bölgədir.***

Muxtar respublikanın mühüm faydalı qazıntı yataqlarından olan travertin və mərmər daş, sement, gips yataqları bu rayonun ərazisində yerləşir ki, bu da həmin xammal ehtiyatından istifadəni uyğun edərək bölgədə böyük sənaye müəssisələrinin yaradılmasına imkan vermişdir. Hazırda rayonun Böyükdüz kəndi ərazisində fəaliyyət göstərən Naxçıvan Sənaye Kompleksində istehsal edilən sement, gips, alçı, məsaməli beton məmulatları, Qarabağlar və Çalxanqala kəndlərindəki travertin və mərmər yataqlarından çıxarılaraq emal olunan eyniadlı məhsullar daxili bazarın tələbini ödəməklə yanaşı, ixraca da yönəldilir.

Müstəqillik illərində yaradılmış Kəngərli rayonu 1 qəsəbə, 10 kənd yaşayış məntəqəsini özündə birləşdirir. Ötən 17 il ərzində burada görülmüş işlər bir rayonun infrastrukturu baxımından tələb olunan bütün zəruri tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Qısa müddətdə rayonda bütün yaşayış məntəqələri yenidən qurulmuş, yollar abadlaşdırılmış, sosial-iqtisadi inkişaf təmin olunmuş, əhalinin həyat səviyyəsi dəfələrlə yüksəlmişdir. İdarəçilikdə təkmilləşmənin təzahürü kimi təşkil olunmuş rayonda görülmüş işləri təfsilatı ilə bir yazıya sığdırmaq mümkün olmasa da, Kəngərli rayonunun qədim və müasir Naxçıvanın simasında tutduğu yer danılmazdır.

Kəngərli rayonu aqrar bölgədir və bu sahənin inkişafı muxtar respublika iqtisadiyyatında özünəməxsusluğu ilə seçilir. Məsələn, Böyükdüz ərazisi muxtar respublikada ən çox taxıl məhsullarının əkildiyi sahələrdəndir. Son illərdə bu sahələrin suvarılması üçün böyükmiqyaslı meliorasiya və irriqasiya tədbirləri həyata keçirilib. Bu da ərazidəki yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verib. Və yaxud muxtar respublikada badam istehsalı ən çox bu rayonun payına düşür. Son illərdə rayonun müxtəlif ərazilərində on hektarlarla yeni badam bağları salınıb. Həmçinin muxtar respublikada ilk dəfə, həm də böyük həcmdə püstə bağı da Kəngərli rayonunun ərazisində salınıb. Bundan əlavə, son illərdə muxtar respublikada tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı tədbirlərə ilk olaraq bu rayonda başlanılıb, bölgədə yeni Tütün Yetişdirmə Təsərrüfatı yaradılıb. Hazırda muxtar respublikada istehsal olunan tütünün həcmində ən böyük pay bu rayona məxsusdur.

Həm sənaye, həm də aqrar sahədə mühüm nailiyyətlərin əldə olunduğu rayonun sosial-iqtisadi inkişafı ötən dövrdə davamlı xarakter alıb. Rayon Statistika İdarəsinin cari ilin ilk altı ayını əks etdirən sosial-iqtisadi göstəricilərinə görə, 2021-ci ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 25 milyon 756 min 100 manat vəsait yönəldilmişdir. Vəsait qoyuluşlarının 24 milyon 466 min 300 manatı və ya 94,7 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir. Sənaye istehsalına gəldikdə bu dövrdə 11 milyon 890 min 600 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Sahibkarlığa göstərilən dövlət dəstəyinin nəticəsidir ki, 2021-ci ilin yanvar-iyun aylarında rayonda 2 hüquqi, 151 fiziki şəxs qeydiyyata alınmış, dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 4 layihə üzrə istehsal sahəsi yaradılmış, 3 layihə üzrə istehsal obyektinin yaradılması davam etdirilmişdir. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmiş, 2021-ci ilin birinci yarısında rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 11 min 202 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir.



Qeyd etmək lazımdır ki, Kəngərli rayonunda əhalinin ərzaq məhsullarına olan tələbatının keyfiyyətli yerli



məhsullar hesabına ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Statistikaya görə, bu ilin məhsulu üçün rayonda 10158 hektar sahədə əkin aparılmışdır ki, bu da bir il öncəki göstəricidən 591 hektar çoxdur. Əkinçilikdə ən üstün istiqamət kimi taxılçılığa böyük önəm verilir. 5998 hektar sahədə aparılmış taxıl əkininin 3215 hektarını buğda, 2783 hektarını isə arpa təşkil etmişdir. Əvvəlki illə müqayisədə taxıl əkini sahəsi 92 hektar artmışdır. Heyvandarlıqda isə ət istehsalı diri çəkidə 1,5 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 1,1 faiz artmışdır. Ümumilikdə götürsək, həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2021-ci ilin yanvar-iyun aylarında bir il öncəyə nisbətən 1,9 faiz çox, yəni 15 milyon 911 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

Təbii ki, əldə olunmuş uğurların digər sahələr üzrə də söyləmək mümkündür. Lakin qısa olaraq onu qeyd edək ki, ötən müddət ərzində rayonda təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə mühüm infrastruktur quruculuğu işləri aparılmış, bu qurumların fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Eyni zamanda rayonda tarix-mədəniyyət abidələrinin qorunması, bərpası və yenidən qurulması işləri də diqqət mərkəzində saxlanılmış, bu sahədə mühüm işlər görülmüşdür. Təsadüfi deyil ki, indi rayona üz tutan yerli və xarici turistlər rayon Tarix-Diyarşünaslıq Muzeyi, Qarabağlar Türbə Kompleksi, Şahtaxtinskilərin ev-muzeyi kimi mədəniyyət müəssisələrini də ziyarət edir, bölgənin qədim və zəngin tarixi haqqında məlumatlar alırlar.

Son illərdə Kəngərli rayonunda diqqətçəkən sahələrdən biri də alternativ və bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlərdir. Xüsusilə su elektrik stansiyaları ilə yanaşı, son illərdə muxtar respublikada günəş elektrik stansiyalarının fəaliyyətə başlaması da bu sahədə mühüm işlərin görüldüyünü sübut edir. Kəngərli rayonu da təbii-coğrafi baxımdan günəş elektrik stansiyalarının fəaliyyəti üçün məqbul sayıldığından ilk dəfə 2019-cu ildə rayonun Qabıllı kəndi ərazisində 2 meqavat, 2020-ci ildə isə 3 meqavat gücündə günəş elektrik stansiyaları qurularaq istifadəyə verilib.

Qeyd edək ki, sosial-iqtisadi göstəricilərin ildən-ilə artması əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə də öz müsbət təsirini göstərir. Nəticədə, bu amil demoqrafik vəziyyətin yaxşılaşmasına öz töhfəsini verir. Statistikaya görə, rayon əhalisinin sayı bir il öncəyə nisbətdə 173 nəfər artaraq 1 iyun 2021-ci il tarixə 33 min 46 nəfərə çatıb.

Bütün bunları sadalamaqda məqsədimiz odur ki, Kəngərli rayonu bu gün muxtar respublikamızın hərtərəfli inkişafında məxsusi yeri olan bölgələrimizdəndir. Hazırda əhali sayı 32 mindən çox olan rayon həm də böyük turizm potensialına malikdir. Ötən dövrdə dünya əhəmiyyətli Qarabağlar Türbə Kompleksinin əsaslı bərpa işlərindən sonra istifadəyə verilməsi, Şahtaxtı kəndindəki tarixi Şahtaxtı hamamında yenidənqurma işlərinin başa çatdırılması, həmçinin rayon ərazisindəki digər arxeoloji və təbiət abidələri bu potensialı daha da artırır. İnanırıq ki, hazırda icrası davam etdirilən, turizmin inkişafı məqsədilə qəbul olunmuş məlum Dövlət proqramı yaxın gələcəkdə Kəngərli rayonunu turistlərin daha çox maraq göstərdiyi bölgəyə çevirəcək.

*Kəngərli rayonu bu gün özünün yeni inkişaf dövrünə qədəm qoyub. Bölgədə inkişaf və yüksəliş davamlı xarakter alıb. Bu inkişaf və tərəqqi isə Heydər Əliyev ideyalarının muxtar respublikamızda uğurla davam etdirilməsinin nəticəsidir.*

**Səbuhi HƏSƏNOV**

---

Yüzillik mətbuat arxivimizdən bu günə

# Günəş enerjisindən istifadə
## 50 il əvvəlki ideyanın gerçək olduğu müasir Naxçıvan

***Yer kürəsində canlı həyatın səbəbkarı olan Günəş işığı enerjisindən necə istifadə olunması bəşəriyyətin bütün mədəni inkişaf mərhələlərində insanları düşündürmüşdür. Yetər ki, yaşadığımız yerdə bol günəşli günlər, açıq səma və bundan istifadə üçün istək olsun. Elə "Şərq qapısı" qəzetinin 18 oktyabr 1969-cu il sayında dərc olunmuş "Naxçıvan MSSR-də Günəş enerjisindən istifadə edilməsi haqqında" başlıqlı yazıda olduğu kimi. Mövzuya akademik yanaşma səviyyəsində qələmə alınmış yazıda Naxçıvanın bu bölgədəki çox güclü Günəş enerjisi potensialı müqayisəli təhlil olunaraq o dövrün texnoloji imkanları ilə konkret elmi-praktik təkliflər də irəli sürülür.***


Шәрг гапысы
Кәндимиз абадлашыр
ЈУБИЛЕЈӘ
Нахчыван МССР-дә Күнәш енержисиндән истифадә едилмәси һаггында
БАЧАРЫГЛЫ
„Улдуз“ мүзакирә олунур
ДИГГӘТ! ДИГГӘТ!
„ШӘРГ ГАПЫСЫ“ газетинә 1970-чи ил үчүн абунә гәбулуна башланмышдыр.

Azərbaycanın uzun müddət durğunluq dövründən sürətli inkişaf mərhələsinə keçid ilində yazılmış bu yazıdan 50 ildən artıq bir vaxt ötüb. İndi bütün dünyada olduğu kimi, xalqımız da elmin və mütərəqqi texnologiyanın insan həyatına gətirdiyi rahatlığın firavanlığını yaşamaqdadır. Neftin, kömürün həddən artıq istifadə olunması ilə parlayan "İliç lampaları" dövründən fərqli olaraq indi iqtisadiyyatın əksər sahələrində olduğu kimi, enerji təminatında da davamlı inkişaf prinsipləri ön plana çıxmış, resursların təkcə indiki nəsillərin deyil, gələcək nəsillərin rifahı üçün düzgün istifadəsi əsas prioritet elan olunmuşdur. Elə özünün enerji təhlükəsizliyini tamamilə alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin etmək strategiyası yürüdən Naxçıvan Muxtar Respublikasında olduğu kimi.

Günəş işığından elektrik enerjisi alınması digər enerji mənbələri ilə müqayisədə həm sərfəli, həm də ekoloji prinsiplər baxımından ən prestijli layihələrdən hesab olunur. Nisbətən bahalı texnologiya tətbiq olunsa da, daha sonra belə elektrik stansiyaları öz xərcini çıxarmaqla çox uzun müddətə yüksək rentabelliklə fəaliyyət göstərir, karbohidrogen xammaldan asılılığı aradan qaldıraraq gələcəyin güc mənbələrinə çevrilirlər. Odur ki, uzun müddət davam etmiş blokada şəraitində hər cür enerji çatışmazlığı imtahanı vermiş Naxçıvanda günəş elektrik stansiyalarının qurulması zamanın tələbi və region iqtisadiyyatının vacib ehtiyacı kimi də ortaya çıxmış uğurlu investisiya layihəsidir.





Naxçıvanda hazırda 4 günəş elektrik stansiyası qurulmuş və bunlarda ümumi gücü, təxminən, 33 meqavat olan yüksək texnoloji avadanlıqlar quraşdırılmışdır. 2015-ci ildə qurulmuş 22 meqavat gücündə Xalxal Günəş Elektrik Stansiyası, 2019-cu ildə və 2020-ci ildə verilmiş ümumi gücü 5 meqavat olan Kəngərli Günəş Elektrik Stansiyası, cari ilin mayında istismara verilmiş, gücü 5 meqavat olan Şərur Günəş Elektrik Stansiyası və təxminən, iki ay əvvəl istifadəyə verilmiş, gücü 1,1 meqavat olan Culfa Külək-Günəş Hibrid Elektrik Stansiyası alternativ enerjidən səmərəli istifadə üçün ərazi-coğrafi şərtlərdən faydalanmaq baxımından özünü doğruldaraq enerji təminatında mühüm paya malikdirlər. Belə ki, bu stansiyalar Naxçıvan Muxtar Respublikasının illik ümumi enerji tələbatının 10 faizdən çoxunu təmin etməkdədirlər. Ekoloji təmizlik və təhlükəsizlik məsələləri də nəzərə alındıqda Naxçıvandakı günəş elektrik stansiyalarının enerji təhlükəsizliyi ilə yanaşı, sosial səmərəsi də göz önündə canlanır. Elə buna görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu ilin may ayının 10-da Naxçıvana səfəri zamanı bütün bu görülən işlərə ən yüksək qiymət verərək demişdir: ***"Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".***

Bəli, böyük və güclü Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın on illər öncəsindən arzuedilən inkişafı bu gün artıq reallıqdır. Hər sahədə olduğu kimi, elektroenergetika sahəsində də həyata keçirilən innovativ layihələr qədim diyarın gələcəyinə Günəş kimi işıq saçır.

**Əli CABBAROV**

**“Şərq qapısı” – 100**

## “Şərq qapısı” qəzetinin elektron güzgüsü – *serqqapisi.az saytı*




Bu il “Şərq qapısı” qəzetinin kollektivi olaraq çox sevincli və qürurluyuq. Ona görə ki, muxtar respublikamızın güzgüsü sayılan doğma qəzetimizin 100 yaşını qeyd edirik. Bir əsrdir, fəaliyyət göstərən qəzetimizin mənalı, bir o qədər də keşməkeşli tarixi inkişaf yoluna nəzər saldıqda, Naxçıvanda qəzetçiliyin əsasını qoyan bu mətbuat orqanının xalqımızın maariflənməsi və inkişafı yolunda yorulmadan, usanmadan sona qədər mübarizəsinin şahidi olduqda onunla bir daha fəxr edirik. Xalqımızın xilaskarı, ümummilli liderimiz Heydər Əliyevin ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”*** fikirləri də qəzetin bütün dövrlərdə, eləcə də bu gün də muxtar respublikamızda baş verən ictimai-siyasi proseslərin, uğurla həyata keçirilən dövlətçilik siyasətinin, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, ədəbiyyat və digər sahələrdə baş verən yeniliklərin güzgüsü olduğunun və üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyinin bariz ifadəsidir. Məhz Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı muxtar respublikada jurnalistika məktəbini formalaşdıran “Şərq qapısı” qəzetinin gücünün və nüfuzunun, bu mətbu orqanın əməkdaşlarının yorulmaz fəaliyyətinin məntiqi nəticəsi olmaqla, eyni zamanda bu məktəbin yetirməkdə olduğu jurnalistlər nəslinin bundan sonrakı geniş fəaliyyəti üçün də böyük bir stimuldur. Bir gənc jurnalist kimi gecəsini, gündüzünü qəzetçiliyə həsr edən jurnalistlərin əməyinə verdiyi dəyərə, göstərdiyi qayğıya görə Ali Məclis Sədrinə minnətdarlığımı bildirməyi özümə mənəvi borc hesab edirəm.

Ötən əsrdən keçən müddətdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə “Şərq qapısı” qəzeti özünün yeni inkişaf mərhələsinə qədəm qoyub, qəzetin maddi-texniki bazası gücləndirilib, fəaliyyəti üçün hərtərəfli iş şəraiti yaradılıb. 2010-cu il iyulun 22-də böyük dövlət qayğısının bariz ifadəsi kimi qəzet redaksiyası üçün yeni bina istifadəyə verilib, qəzetin rəngli nəşrinə başlanılıb. Təsisçisi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti olan qəzet hazırda həftədə beş dəfə, 1500 tirajla nəşr edilir.

Gündəlik ictimai-siyasi qəzet olan “Şərq qapısı” muxtar respublikamızda baş vermiş siyasi, iqtisadi, sosial və mədəni hadisələrin davamlı, əhatəli salnaməsini yaradır. Müasir iş şəraiti yaradılan qəzetin 2012-ci ildən etibarən istifadəyə verilən *www.serqqapisi.az* saytı dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəyir və bu sayt qəzetin elektron arxiv bazasını təşkil edir. Sayt 2019-cu ildə yenilənib. Elektron saytımız Naxçıvanla bağlı dəqiq informasiyanın dünyaya çatdırılmasında, cəmiyyətin informasiyaya olan ehtiyacının dolğun ödənilməsində öz operativliyi, əlçatanlığı ilə seçilir. Ay ərzində qəzetin saytına minlərlə baxış sayı olur. Bu da Naxçıvan Muxtar Respublikasına günü-gündən artan marağın nəticəsidir.

Qeyd edim ki, saytımız Azərbaycan, rus və ingilis dilləri olmaqla, 3 dildə informasiya yayır. İnternet vasitəsilə açdıqda saytın panoramında yaradılan 9 bölmə ilə tanış ola bilərsiniz. Bu bölmələr haqqında qısaca məlumat verim.

Ana səhifədəki *“Rəsmi xronika”* adlanan bölmədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə keçirilən tədbirlər işıqlandırılır.

*“Rəsmi sənədlər”* bölməsində Azərbaycan Respublikası Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı fərman və sərəncamlar, Dövlət proqramları yer alır.

*“İctimai-siyasi”* bölmədə ölkəmizdə, muxtar respublikamızda gedən ictimai-siyasi hadisələr işıqlandırılır. Muxtar respublikamızın dünəninin və bu gününün müqayisəli şəkildə verildiyi “Dünən və bu gün” rubrikasında dərc olunan maraqlı məqalələri buradan əldə edə bilərsiniz.

*“İqtisadiyyat”* bölməsində həm qəzet əməkdaşlarının, həm də muxtar respublika ziyalılarının iqtisadi mövzuda qələmə aldıqları məqalələr yerləşdirilib.

*“Humanitar”* bölmə özü də elm və təhsil, mədəniyyət, turizm, səhiyyə, sosial yarımbaşlıqlarına bölünür. Burada hər bölmənin profilinə uyğun məqalələr, xəbərlər yerləşdirilib.

*“İdman”* bölməsində muxtar respublikamızda idmanın inkişafı, idmançılarımızın qazandıqları uğurlar geniş şəkildə işıqlandırılır.

*“Fotolar”* adlanan bölmədə Naxçıvan şəhəri, muxtar respublikanın rayonlarından maraqlı fotoşəkillərlə tanış ola bilərsiniz.

*“Elanlar”* adlanan bölmədə isə son elanlarla tanış ola bilərsiniz.

Qəzetimizin rəsmi internet səhifəsində “Şərq qapısı”nın həftəlik nömrələri, yeni yaradılmış “Şərq qapısı” – 100 il bölməsi yerləşir. Bu bölmə qəzetimizin 100 illik yubileyinə töhfə kimi yaradılıb və muxtar respublika ziyalılarının, kütləvi informasiya vasitələri əməkdaşlarının “Şərq qapısı” ilə bağlı qələmə aldıqları xatirə, məqalə, oçerk və digər janrlarda yazılar yerləşdirilir. *“Vətən müharibəsinin şəhidləri”* adlanan bölmə də yenidir. Burada qəhrəmanlıqla döyüşərək Vətən müharibəsində şəhid olmuş 3000-ə yaxın hərbi qulluqçunun siyahısı, onlar haqqında müəyyən qeydlər göstərilib. *“Naxçıvanda yaralıların və şəhid ailələrinin təminatına dəstək fondu”* bölməsi vasitəsilə buraya pul köçürə və ərazi bütövlüyümüz uğrunda şəhid olanların, yaralıların ailəsinə dəstək verə bilərsiniz. Yeni və xüsusi bölmələrdən biri də *“Əfsanəyə dönən ömürlər”* bölməsidir ki, burada 44 günlük şanlı Vətən müharibəsində tarix yazan qəhrəman oğullarımızın şücaəti, qəhrəmanlığı, öz canı-qanı bahasına vuruşaraq şəhidlik adlı zirvəni fəth edənlərin həyat hekayələri, məqalələr, esse və oçerklər yer alır.




*“Estafet”* adlanan bölmə isə “Şərq qapısı” qəzetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən hamiliyə götürdüyü Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında təhsil alan tələbələrin ixtiyarına verilib. Həmin ixtisasda təhsil alan İlahə Allahverdiyevanın, Etibar Dərbəndəliyevin, təhsil ala-ala qəzetdə müxbir kimi çalışan Məcid Rəşadətoğlunun maraqlı məqalələrini qeyd edə bilərik. *“Müəlliflər”* bölməsində qəzet əməkdaşlarının məqalələri onların imzalarına müvafiq olaraq yerləşdirilib. Buraya daxil olmaqla onların müxtəlif mövzularda qələmə aldıqları məqalələrlə tanış ola, sizə maraqlı olan mövzuları buradan asanlıqla tapıb oxuya bilərsiniz. *“Oxucu məktubları”* hissəsində isə muxtar respublika sakinlərinin qəzetimizə ünvanladıqları məktublar yer alır. *“Keçidlər”* adlanan bölmədə müxtəlif informasiya saytlarının linkləri yerləşdirilib.

*“Axtarış”* bölməsində istənilən məlumatı axtarıb tapmaq mümkündür. Saytımıza yer alan *serqqapisi@nakhchivan.az* elektron ünvanına siz də maraqlı yazılarınızı göndərə bilərsiniz.

Sonda onu qeyd edim ki, Ali Məclis Sədrinin müvafiq Sərəncamına əsasən təsdiq edilən Tədbirlər Planına uyğun olaraq 100 illik yubiley münasibətilə qəzetimizin elektron saytı yenilənərək daha da təkmilləşdiriləcək. Biz də yaradıcı düşüncəyə malik, muxtar respublikamızın siyasi həyatındakı yeniliklərə fəal ziyalı münasibəti bildirmək istəyən hər kəsi qəzetimizlə müntəzəm əməkdaşlığa səsləyirik.

**Güntac ŞAHMƏMMƏDLİ**

***Vətən sevgisindən nə qədər danışsaq, nə qədər yazsaq da bu hissin izah edilməsində sözlər aciz qalar. Təkcə onu deyə bilərəm ki, Vətən sevgisini ən böyük sevgi sayan, bu sevgini gənclərə aşılayan, gözünü qırpmadan düşmənin üzərinə yeriyən oğullarımız, gözünün ağı-qarası tək oğul övladını bu Vətənə qurban edərək, oğlunun cənazəsini qarşılayarkən “Vətən sağ olsun!” deyib əyilmədən, sınmadan, məğrurcasına dayanaraq başını dik tutan Şərur rayonunun Oğuz kənd sakini şəhid Əli Yusifovun anası Bəturə xanım kimi qəhrəman analarımıza həmişə yüksək ehtiram göstərilir. Bəturə ana bu gün oğlunun 24 yaşını, cənnətdəki ilk doğum gününü elə oğlunun məzarı üstündə onunla söhbət edərək qeyd edir.***

***Əfsanəyə dönən ömürlər***

## Şəhidlər ölmürlər

*– 1997-ci ilin gözəl bir yay səhərində Tanrının mənə hədiyyəsi olaraq dünyaya göz açmışdın. Səninlə doğum gününü qeyd etmək isə nə mənə, nə də ki atana, bacına o qədər də çox qismət olmadı. Böyüyüb ürəyindəki Vətən eşqini ailəndən dəyərli tutdun. Hərbi qulluğa başladığın o gündən hər il bizdən uzaqda qeyd edərdin bu günü. İndi isə mən sənin məzarına gəlmişəm, oğul, doğum günün mübarək!*

*Getməyir ki, gözlərimdən şux qamətin, uca boyun,*

*Hara getsəm mənimləsən... qəlbimdəsən,*
*Nəfəsimdə, səsimdəsən, bətnimdəsən.*
*Aman oğul, anasına şəraf verib*
*Tanrıya ucalan oğul...*
*Bircə dəfə qucaqlayıb boynundan öpə bilsəydim,*
*Sanardım ki, cənnətimin özündəyəm.*
*Hardan alım nəfəsini,*
*Saçlarının ətri üçün darıxıram,*
*Gülüşün yadıma düşür,*
*Səsin üçün darıxıram,*
*Darıxıram, oğul, yaman darıxıram...*

– Canım ana! Yenə də gözlərində yaşla mənə qonaq gəlmisən. Axı mən Vətən sevgisini ilk olaraq sənin laylalarında öyrənmişəm. Oğul odur ki, Vətəni yad əllərə verməsin deyərdin həmişə. Mən də bu tərbiyə ilə böyüdüm, ana! İstər 2012-2015-ci illərdə Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldığım illərdə, istərsə də Bakıda Ali Hərbi Akademiyada təhsil aldığım zamanlarda mən və mənim kimi Vətən oğulları bu tərbiyəni daha da möhkəmləndirdik. 30 ildir ki, yağı tapdağında qalan torpaqlarımız bizim qeyrətimiz idi. Və o torpaqları da yad əllərdən xilas etmək lazım idi axı.

*– Bilirəm, oğul! Səninlə nə qədər qürur duysam da, azdır. Sən və sənin kimi yüzlərlə oğullarımız bu Vətənin namusunu, qeyrətini geri qaytardınız.*

– Bəli, ana, Xocalıda, 20 Yanvarda, Birinci Qarabağ müharibəsində qadınlarımıza, ana-bacılarımıza verilən işgəncələri hələ uşaqikən filmlərdən izləyərək böyüdük biz. Mən bu gün cənnətimdə çox xoşbəxtəm. Çünki bir zamanlar, sadəcə, filmlərdə izləyib olduğum heç nə gəlmədiyinə görə üzülürdüm. Artıq onların intiqamını döyüş yoldaşlarımla almışıq.

*– Anan sənə qurban, bala! Biz də sizinlə fəxr edirik. Amma gəlişin o qədər gecikdi ki, hər gün sağ-salamat olduğuna ümid edərək 8 ay gözümüzü yollara dikdik.*



– Bilirəm, ana! Uzun müddət gözünü yolda qoydum. Amma üçrəngli bayrağımıza bürünüb doğma Naxçıvanıma qayıdanda xalqımın, elimin, Vətənimin məni necə təmtəraqla qarşılayıb son mənzilə yola saldığını cənnətimdən seyr edirdim. Mən ölməmişəm. Mən ancaq dünyamı dəyişmişəm. Şəhidlər ölmürlər axı, ana.

*– Evimizin tək ümid işığı, soyumuzun layiqli davamçısı idin, bala. Sən şəhid olana qədər mənim təkcə bir oğlum var idi. Bu gün bütün Vətən oğulları mənə ana deyirlər. Sənin yoxluğunu hiss etdirməməyə çalışırlar. Bizdən nigaran qalma, oğul. Dövlətimizin qayğısını hər an üzərimizdə hiss edirik.*

– Əlbəttə, sən şəhid anası olduğun gündən hər kəs səninlə qürur duyur, ana. Yanınızda deyiləm deyə sanma ki, sizdən xəbərsizəm. Ruhum hər an sizləri izləyir. Onu da bilirəm ki, mən şəhid olandan sonra cənab Ali Baş Komandanımızın sərəncamları ilə “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltif olunmuşam. O medallara baxarkən başını dik tut, ağlama, ana. Sən axı şəhid anasısan.

*– Sən dünyanı dəyişəndən sonra mənə elə gəlirdi ki, artıq mənim yaşamağımın mənası yoxdur. Amma düşünürəm ki, yaşamalıyam. Azad etdiyiniz torpaqlarımızda firavan yaşayan xalqımızın üzündə gülüş, o torpaqlarda gələcək quran gənclərimizin sevincini görmək üçün yaşamalıyam. Bir qəhrəman oğulun anası kimi yaşamalıyam.*

***Bəli, dəyərli oxucularımız! Vətən müharibəsinin daha bir qəhrəmanı, toy xonçası nişanlısının evində yarımçıq qalan, canını Vətən uğrunda fəda edən yüzlərdən biri haqqında şəhidimizin anasının dilindən sizlərə məlumat verməyə çalışdım. Əli və onun kimi bu torpağa can verən oğullar ölmək haqqında fikirləşməmişdi. Biz hər zaman vurğulayırıq ki, sülhsevər xalqıq. Lakin yağı düşmən öz məkrli planlarından əl çəkməyib bizim torpaqlarımızda hökmranlıq etməyə çalışanda Azərbaycan oğulları nəyə qadir olduqlarını göstərməyə məcbur olur. 44 günlük Vətən savaşında qazandığımız Qələbədə olduğu kimi!***

***Mövludun mübarək, şəhidim!***

**Telli MƏMMƏDOVA**

## Seminarlar yekunlaşıb



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi sistemində fəaliyyət göstərən kitabxanaların əməkdaşları üçün təşkil olunmuş “Ümumi və fərdi uçot kitablarının, kitabxana gündəliyinin işlənmə qaydaları” adlı seminar olub. Nazirliyin əməkdaşı Şəfəq Abbasova seminarda çıxış edərək bildirib ki, məqsəd kitabxanaçılara əməli və metodik köməklik göstərməkdən ibarətdir. Seminar 6 mərhələdə keçirilib. Növbəti seminar Naxçıvan Şəhər Mərkəzləşmiş Kitabxana Sisteminin əməkdaşları üçün təşkil olunub.

Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova ümumi və fərdi uçot kitablarının, kitabxana gündəliyinin işlənmə qaydaları haqqında məlumat verib.

Sonda suallar cavablandırılıb, kitab üzərində əyani olaraq nümunələr göstərilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## *“Yay məktəbi”*ndə daha bir mərhələyə yekun vurulub



Gənclərin istirahətini səmərəli təşkil etmək məqsədilə Ağbulaq İstirahət Mərkəzində təşkil olunan “Yay məktəbi”nin iştirakçıları mərkəzin turizm imkanları, ərazidəki fəaliyyət növləri ilə tanış olub, müxtəlif idman oyunları, “Vətəni tanı” və “Fərdi Xəmsə” intellektual oyunlarında iştirak edib, şəhid leytenant Qabil Orucəliyevə həsr edilən sənədli filmi izləyib, STEAM təlimində də iştirak ediblər. “Gender bərabərliyi” və “Sosial şəbəkələrin cəmiyyətdəki rolu” mövzularında müzakirələr aparılıb, gənclərin nümayiş etdirdikləri yumoristik səhnəciklər izlənilib. Axşam saatlarında isə gənc skripkaçı, Naxçıvan Dövlət Filarmoniyasının solisti Cahangir Qurbanovun solo konserti olub. İştirakçılar fotomüsabiqə və “Gələcək üçün məliyyə” mövzusunda təlimdə iştirak ediblər. Təlimlərdə fərqlənən gənclərə sertifikat, müsabiqə və yarışların qaliblərinə isə fəxri fərmanlar təqdim edilib.

Qeyd edək ki, “Yay məktəbi” Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrinə vakant vəzifələrə işə qəbul üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 14 avqust-14 sentyabr 2021-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında (www.dim.nmr.az) "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzinə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət İmtahan Mərkəzinin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | Vəzifə | Vakant yerlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| | **Naxçıvan şəhəri üzrə:** | | | |
| 6910327 | 3 nömrəli tam orta məktəb | Kitabxana müdiri | 1 | * |
| 6910343 | 3 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | * |
| 6910355 | 3 nömrəli tam orta məktəb | Laborant (kimya, biologiya) | 1 | * |
| | **Cəmi:** | **3 yer** | | |
| | **Şərur rayonu üzrə:** | | | |
| 6900454 | Fizika-Riyaziyyat Təmayüllü Lisey | Laborant (fizika) | 1 | |
| 6900449 | Fizika-Riyaziyyat Təmayüllü Lisey | Tərbiyəçi | 1 | ** |
| 6920253 | Şərur şəhər 2 №-li tam orta məktəb | Laborant (biologiya) | 1 | |
| 6920856 | Axaməd kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6920805 | Axaməd kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6920905 | Axura kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6920906 | Axura kənd tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6920405 | Aralıq kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6920605 | Aşağı Daşarx kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6921027 | Cəlilkənd kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6921305 | Çomaxtur kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6921455 | Danyeri kənd tam orta məktəb | Laborant (kimya, biologiya) | 0,5 | |
| 6921856 | Diyadin kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6922005 | Düdəngə kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6922527 | Həmzəli kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6922505 | Həmzəli kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6925005 | Xələc kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6922727 | Kərimbəyli kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6922827 | Kosacan kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6923756 | Qaraburc kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6923406 | Muğanlı kənd tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6923627 | Püsyan kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6924556 | Tənənəm kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6924855 | Vərməziyar kənd tam orta məktəb | Laborant (kimya, biologiya) | 0,5 | |
| | **Cəmi:** | **23 yer** | | |
| | **Babək rayonu üzrə:** | | | |
| 6930543 | Cəhri qəsəbə 1 №-li tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6932352 | Nehrəm qəsəbə 3 №-li tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6930343 | Araz kənd əsas ümumi orta məktəb | Kitabxanaçı | 1 | |
| 6930805 | Didivar kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6931005 | Göynük kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6931352 | Hacıvar kənd tam orta məktəb | Laborant (kimya) | 0,5 | |
| 6931505 | Kültəpə kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6932654 | Qaraqala kənd tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6931705 | Məzrə kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6932427 | Payız kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6932454 | Payız kənd tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6933027 | Uzunoba kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6933052 | Uzunoba kənd tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6933455 | Yarımca kənd tam orta məktəb | Laborant (kimya, biologiya) | 1 | |
| 6933543 | Yuxarı Buzqov kənd tam orta məktəb | Kitabxanaçı | 1 | |
| | **Cəmi:** | **14,5 yer** | | |
| | **Ordubad rayonu üzrə:** | | | |
| 6940427 | Aşağı Əylis kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6940605 | Azadkənd kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6940805 | Behrud kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6940906 | Biləv kənd tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6941105 | Çənnəb kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6941605 | Düylün kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6942005 | Gilançay kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6942105 | Kələki kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6942305 | Nəsirvaz kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6942405 | Nürgüt kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6942627 | Parağa kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6942905 | Tivi kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6943105 | Üstüpü kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6943256 | Vələver kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6943606 | Yuxarı Əylis kənd tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| | **Cəmi:** | **15 yer** | | |
| | **Culfa rayonu üzrə:** | | | |
| 6950756 | Dizə kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6950827 | Əbrəqunus kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6951227 | Gal kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6951356 | Göydərə kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6951427 | Gülüstan kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6952427 | Xoşkeşin kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6952456 | Xoşkeşin kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6951856 | Qazançı kənd tam orta məktəb | Laborant (fizika, kimya, biologiya) | 1 | |
| 6961605 | Ləkətağ kənd tam orta məktəb | Psixoloq | 1 | |
| | **Cəmi:** | **9 yer** | | |
| | **Kəngərli rayonu üzrə:** | | | |
| 6970405 | Qabıllı kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6970652 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6970827 | Təzəkənd kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6971127 | Yeni Kərki kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6971105 | Yeni Kərki kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6971227 | Yurdçu kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| | **Cəmi:** | **6 yer** | | |
| | **Şahbuz rayonu üzrə:** | | | |
| 6960427 | Ağbulaq kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6960405 | Ağbulaq kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6961027 | Gömür kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6961053 | Gömür kənd tam orta məktəb | Laborant (biologiya) | 1 | |
| 6961005 | Gömür kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6961105 | Güney Qışlaq kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6961854 | Qızıl Qışlaq kənd tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6961627 | Mahmudoba kənd tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6961952 | Sələsüz kənd tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6962005 | Şada kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6962006 | Şada kənd tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6962152 | Şahbuzkənd kənd tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6962305 | Yuxarı Qışlaq kənd tam orta məktəb | Psixoloq | 1 | |
| | **Cəmi:** | **13 yer** | | |
| | **Sədərək rayonu üzrə:** | | | |
| 6980127 | Heydərabad qəsəbə tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6980205 | Qaraağac kənd tam orta məktəb | Psixoloq | 1 | |
| 6980352 | Sədərək kənd 1 №-li tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6980405 | Sədərək kənd 2 №-li tam orta məktəb | Psixoloq | 1 | |
| 6980406 | Sədərək kənd 2 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| | **Cəmi:** | **5 yer** | | |
| | **Yekun:** | **88,5 yer** | | |

(*) Naxçıvan şəhər 3 №-li tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(**) Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə "Tərbiyəçi" vəzifəsinə yalnız kişi cinsli vətəndaşlar müraciət edə bilərlər.

## Gənc müəllimlərin şahmat yarışı



12 avqust – Beynəlxalq Gənclər Günü ilə bağlı təsdiq edilən tədbirlər planına uyğun olaraq şahmatı tədris edən gənc müəllimlər arasında muxtar respublika birinciliyi keçirilib. Əlamətdar günün qeyd olunması, şahmat oyununa marağın artırılması və bu sahədə kütləviliyin təmin edilməsi məqsədilə keçirilən yarışda 38 müəllim iştirak edib. İsveçrə sistemi üzrə 7 turdan ibarət mübarizənin yekununda qaliblər bəlli olub.

Kişilər arasında ən yaxşı göstəriciyə nail olan Tural Zeynalov birinci yerə layiq görülüb. Əli Məmmədov ikinci, Əli Hüseynzadə isə üçüncü olub. Qadınlar arasında Könül Həşimova birinci olub. Xədicə Sadiqova ilə Fəridə Şükürova müvafiq olaraq ikinci, üçüncü sıralarda qərarlaşıblar.

Gənclər və İdman, Təhsil nazirlikləri və Şahmat Federasiyası tərəfindən birgə təşkil olunan yarışın sonunda ilk üçlükdəki iştirakçılara diplom təqdim edilib.

## Nəsrin Babayeva Avropa çempionatında mübarizə aparır



Rumıniyanın Yassı şəhərində qadın şahmatçıların Avropa çempionatı keçirilir.

Qitə turnirində ölkəmizi 10 şahmatçı təmsil edir. Onlardan biri də Naxçıvan Şahmat Federasiyasının idmançısı Nəsrin Babayevadır. Debütdə yerli idmançıya məğlub olan yeniyetmə şahmatçımız növbəti qarşılaşmasında Yunanıstan şahmatçısını məğlub edərək ilk xalı aktivinə yazdırıb. 3-cü, 4-cü oyun günlərini xalsız başa vuran təmsilçimizin növbəti rəqibi Denis Tripolddur.

Azərbaycan şahmatçılarından ən yaxşı göstərici beynəlxalq usta Günay Məmmədzadəyə məxsusdur: 4 görüşdən 3,5 xal. Gövhər Beydullayeva aktivindəki xal sayını 3-ə yüksəldərək mövqeyini yaxşılaşdırıb. Gülnar Məmmədova, Xəyalə Abdulla, Ülviyyə Fətəliyeva və Xanım Balacayeva hərəyə 2,5 xal toplayıblar. Zeynəb və Türkan Məmmədyarovaların hər biri 2, Ayan Allahverdiyeva isə cəmi 1 xal toplaya bilib.

Ümumi mükafat fondu 60 min avro olan Avropa çempionatı avqustun 21-dək davam edəcək. Qalib gələn şahmatçı dünya kuboku turnirində yarışmaq hüququ qazanacaq.

Qeyd edək ki Avropa çempionatında 29 ölkədən 117 şahmatçı mübarizə aparır.

## İntellekt oyunu

"Xəmsə" milli intellekt oyunu üzrə fərdi mübarizə xarakteri daşıyan yarışa 12 iştirakçı qatılıb. Oyunun keçirilmə məqsədi sağlamlıq imkanları məhdud yeniyetmələrin intellektual səviyyəsini, zehni inkişafını stimullaşdırmaq, asudə vaxtlarının səmərəli təşkilində yeni üsullar tətbiq etməkdən ibarət olub.

Yekun nəticələrə əsasən İlqar Məmmədli 6000 xallıq göstərici ilə oyunu birinci sırada tamamlayıb. Fatimə Əsədli (3600) ikinci, İradə Hüseynli (3200) isə üçüncü olub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyi tərəfindən təşkil olunan yarışın sonunda iştirakçılar mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi, ev 15-də yaşamış Rzayeva Ruqiyyə Hüseyn qızının adına olan fərdi yaşayış evinin 48 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 654